**Azərbaycan Respublikasının**
**AUDİTORLAR PALATASI**

**CHAMBER OF AUDITORS**
**of the Republic of Azerbaijan**

AZ1072, Bakı, S.Y.Bakuvi küç. 35, Tel./Faks: 498-28-55, E-mail: audit-azerbaijan@audit.gov.az AZ1072, 35, S.Y.Bakuvi Str., Ph./Fax: 498-28-55

№ 01-1/119 «23» dekabr 2022 il/year

**Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni 2023-cü il münasibətilə**

**T ə B R İ K**

**Hörmətli həmkarlar!**

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi və şəxsən öz adımdan Sizi 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni 2023-cü il münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan auditorları ölkənin iqtisadi, ictimai-siyasi, mədəni həyatında fəal iştirak edir və dövlətin idarə olunmasında faydalı xidmətlər göstərirlər.

Çox xoşdur ki, Sizlər ölkəmizdə hesabatlılığın və şəffaflığın artırılması istiqamətində, habelə kölgə iqtisadiyyatına və korrupsiyaya qarşı mübarizə sahəsində iqtisadiyyatın möhkəmləndirilməsi naminə vəzifə borclarınızı şərəf və ləyaqətlə yerinə yetirirsiniz.

İnanıram ki, Auditorlar Palatasının üzvü olan auditorlarımız bundan sonra da möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının yeni dövrün çağırışlarını nəzərə alaraq, iqtisadi islahatların indiki mərhələsində müstəqil hesabatlılığı və audit institutunu inkişaf etdirmək, onun təsirliliyini artırmaq, audit xidmətlərində rəqəmsallaşma işini tətbiq etmək və beynəlxalq aləmə inteqrasiyasını gücləndirmək sahəsində müəyyən etdiyi tövsiyə və tapşırıqların həyata keçirilməsində, ölkəmizin iqtisadiyyatının inkişafı istiqamətində qarşıya qoyulmuş məqsədlərin reallaşdırılmasında öz mühüm töhfələrini verəcək və mənsub olduqları şərəfli və məsul auditor peşəsinə sədaqətlə xidmət edəcəklər.

Yeni iliniz mübarək, əziz həmkarlar.

**Dərin hörmətlə,**

Azərbaycan Respublikası Auditorlar Palatası / Chamber of Auditors of Azerbaijan Republic

Vahid NOVRUZOV
Azərbaycan Respublikası
Auditorlar Palatasının sədri,
iqtisad elmləri doktoru, professor